# Kitabxanalarda diyarşünaslıq ədəbiyyatının təbliği

*Metodik tövsiyələr*

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Milli Kitabxanası

# Kitabxanalarda diyarşünaslıq ədəbiyyatının təbliği

***Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr***

**BAKI - 2015**

**KBT** Ч735.113.2(2A):Д9 (2A)0
**UOT** 021.4(083.92)(479.24)

**Tərtibçi**: **N.Alışova**

**İxtisas redaktoru və buraxılışa məsul**: **K.M.Tahirov,**
*professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor**: **A.Abdullayeva**

**Kitabxanalarda diyarşünaslıq ədəbiyyatının təbliği**: metodik tövsiyələr /tərt. ed. N.Alışova; ixtisas red. və bur. məs. K.Tahirov; red. A.Abdullayeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2015.- 39 s.

**© Azərbaycan Milli Kitabxanası, 2015**

## Tərtibçidən

XXI əsr informasiya əsri kimi kitabxanaların qarşısında çox mühüm, təxirəsalınmaz vəzifələr qoymuşdur. Bu vəzifələr hər şeydən öncə ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafının sürətlə yüksəldilməsini, milli ideologiyanın, Azərbaycan dövlətçiliyinin təbliğini tələb edir.

Hər bir kitabxanaçının vəzifəsi oxucuları doğulduğu diyarın tarixinin öyrənilməsindən başlayaraq, ölkəmizin tarixi, onun şəxsiyyətləri, etnoqrafiyası, mədəniyyəti, milli mənəvi dəyərləri və gələcək inkişaf perspektivləri barədə məlumatlandırmaqdan, onlarda doğma diyara, vətənə məhəbbət və qayğı ilə yanaşılmasını tərbiyə etməkdən ibarətdir.

Sizə təqdim olunan bu vəsaitdə kitabxana fondunun milli nəşrlərlə komplektləşdirilməsi, diyarşünaslıq soraq-biblioqrafiya aparatının təşkili ilə bağlı tövsiyələr verilmiş, diyarşünaslıq ədəbiyyatının təbliğinə kömək məqsədilə keçiriləcək tədbirlərdən bəhs edilmişdir.

Nəşrlə bağlı rəy və təkliflərini Milli Kitabxanaya göndərən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Ünvan:** AZ-1000 Bakı şəh., Xaqani küç. 29;
**E-mail:** metodik@anl.az

# Giriş

Diyarşünaslıq – bir diyarın (geniş mənada ölkənin) təbii coğrafi şəraitinin, tarixinin və mədəniyyətinin, etnoqrafiyasının, adət və ənənələrinin öyrənilməsidir. Azərbaycanda diyarşünaslıq işini tarixi cəhətdən üç dövrə bölmək olar: XX əsrin əvvəllərinə qədər olan dövr, keçmiş Sovet ittifaqının yaranmasından sonrakı dövr, 1991-ci ildən Azərbaycan respublikasının yenidən müstəqillik əldə etməsindən sonrakı dövr. Bu dövrlər siyasi quruluşuna görə müxtəlif olsalar da, hər birində diyarşünaslıqla bağlı müəyyən işlər görülmüşdür.

Sovet Azərbaycanı dövründə diyarşünaslıq işləri genişlənmiş, getdikcə bu mühüm dövlət işinə əhalinin daha çox hissəsi cəlb olunmuşdur. Respublikada gündən-günə genişlənən diyarşünaslıq işləri qabaqcıl elm və mədəniyyət xadimlərini xalqımızın maddi və mənəvi irsini öyrənməyə, onun inkişaf mərhələlərini tədqiq etməyə həvəsləndirirdi. Bunun nəticəsidir ki, artıq XX əsrin 20-ci illərində onlarca adda diyarşünaslıq xarakterli kitablar meydana gəlmişdi. Bu kitablarda Azərbaycanın faunası, yeraltı sərvətləri, tarixi, etnoqrafiyası geniş şəkildə tədqiq edilmişdir. Bu dövrdə respublikanın kitabxanaları da diyarşünaslıq işləri ilə məşğul olurdular. Onlar öz fondlarını diyarşünaslıq ədəbiyyatı ilə komplektləşdirir, kataloq və kartoteka təşkil edir, bu tipli ədəbiyyatı təbliğ edirdilər. Bu məqsədlə, 1922-ci ildə diyarşünaslığa dair "***Azərbaycan türk mətbuatı***" adlı biblioqrafiya çap edilmişdir.

1923-cü ildə diyarşünaslıq işlərini elmi əsaslar üzərində inkişaf etdirmək məqsədilə xalqımızın tarixini, arxeologiyasını, etnoqrafiyasını, ədəbiyyat və incəsənətini, respublikanın təbii sərvətlərini öyrənmək məqsədilə bir sıra elmi tədqiqat müəssisələri, Azərbaycanı tədqiq və tətəbbö cəmiyyəti, diyarşünaslıq cəmiyyətləri və muzeyləri yaradılmışdı.

Bu sahədə 1923-cü ildə təşkil edilmiş Azərbaycan Mərkəzi Dövlət Kitabxanasının (indiki ***Azərbaycan Milli Kitabxanası)*** fəaliyyəti xüsusilə qeyd edilməlidir. Hələ 1923-cü ilin iyul ayında Kitabxana Şurasının iclasında kitabxananın Şərq şöbəsində ədəbiyyatın alınması üçün xüsusi komissiyanın təşkil olunması qərara alınmışdır. Sonra isə bu sahədə işlər davam etdirilmişdir.

1963-cü ildə kitabxanada ***Diyarşünaslıq və milli biblioqrafiya*** bölməsi yaradılmış, "Əsasnaməsi" hazırlanmışdır. Həmin əsasnaməyə əsasən bölmənin əsas vəzifəsi Azərbaycanşünaslığa dair bütün materialları toplayıb oxucuların istifadəsinə verməklə yanaşı, bu ədəbiyyatın soraq-biblioqrafiya aparatında geniş əksinə diqqət yetirmək, "Azərbaycanşünaslıq" kartotekasını daha da təkmilləşdirmək, ölkəşünaslıq mövzusunda biblioqrafik göstəricilər hazırlamaq, respublikanın şəhər və rayonlarındakı kütləvi kitabxanalarda diyarşünaslıq biblioqrafik fəaliyyətin təşkilinə köməklik göstərmək idi.

Beləliklə, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası həm tövsiyə biblioqrafiyasının mərkəzi, həm də kütləvi kitabxanalara metodik mərkəz kimi formalaşmağa başlamışdır ki, bu da ölkəşünaslıq biblioqrafiyasının inkişafına təsir göstərmişdir. 1974-cü ildən bu bölmə Diyarşünaslıq və milli biblioqrafiya şöbəsi (indiki ***Diyarşünaslıq elmi biblioqrafiya***) kimi müstəqil fəaliyyət göstərmişdir.

Respublikamız 1991-ci ildə öz müstəqilliyini yenidən bərpa etdikdən sonra tarix-diyarşünaslıq işi sahəsində əhəmiyyətli işlər aparılmışdır. Azərbaycanın inkişafı və dünyaya tanıdılmasında ümummilli lider Heydər Əliyevin əzmkar fəaliyyəti və onun davamçısı, ölkə başçısı cənab İlham Əliyevin yürütdüyü uzaqgörən siyasət mühüm əhəmiyyət kəsb etmişdir.

Respublikada demokratik hərəkat genişlənmiş, ölkənin tarixinin doğru-düzgün yazılma imkanı əldə edilmişdir. 2000-ci ildə ulu öndər Heydər Əliyevin göstərişi ilə Azərbaycanın XIX və XX əsrlər tarixi yenidən yazılmışdır. Bununla yanaşı müstəqillik şəraitində elmin, mədəniyyətin, incəsənətin, texnikanın bu və ya

digər sahələri inkişaf etmiş, iqtisadi sahədə yüksəliş olmuş, neft müqavilələri bağlanmış, təhsil sistemində islahatlar keçirilmişdir. Ölkənin ayrı-ayrı diyarları inkişaf etmiş, regionlarda tariximizi əks etdirən tarix-diyarşünaslıq müzeyləri yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamlarla təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər, 2009-2013-cü illərdə)" fundamental sənəd kimi ölkə iqtisadiyyatının və bütövlükdə ölkəmizin inkişafı üçün çox mühüm rol oynamışdır.

Ölkə başçısı cənab İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, kitab və kitabxana işinin inkişafında tamamilə yeni bir mərhələnin əsası qoyulmuşdur. Cənab prezidentin 12 yanvar 2004-cü il tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı dünya miqyasında analoqu olmayan bir humanitar aksiya səviyyəsinə qalxmış və Azərbaycan kitabxanalarının, o cümlədən Milli Kitabxananın latın qrafikalı milli ədəbiyyat fondunun formalaşmasında əvəzsiz rol oynamışdır. Bu sərəncama müvafiq olaraq 600 addan çox kitab nəşr olunaraq cənab Prezidentin hədiyyəsi kimi kitabxanalara təmənnasız paylanmışdır.

Bu nəşrlərin hər birindən 100 nüsxə Milli Kitabxanaya verilməsi Azərbaycanın dünyada təbliği məqsədilə on minlərlə kitabın beynəlxalq kitab mübadiləsi yolu ilə dünya milli kitabxanalarına, beynəlxalq kitab sərgi-yarmarkalarına göndərilməsinə imkan yaratmışdır. Eyni zamanda, bu kitabların elektron kitabxanası yaradılaraq oxucuların istifadəsinə verilmişdir. Elektron kitabxana Milli Kitabxananın (www.anl.az) İnternet saytı vasitəsilə respublika ərazisində və bütün dünyada həmin ədəbiyyatı təbliğ edir.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə imzalanmış "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı

üzrə Dövlət Proqramı"nın ayrı-ayrı bəndlərində Azərbaycanşünaslığın daha da inkişaf etdirilməsi ilə bağlı bir çox məsələlər bu gün artıq öz həllini tapmışdır. Kitabxanaların veb-səhifələrində "Azərbaycan ədəbiyyatı", "Azərbaycan tarixi", "Azərbaycan muzeyləri", "Azərbaycanın turizm gözəllikləri" elektron məlumat bazaları yaradılmış və geniş ictimaiyyətin istifadəsinə verilmişdir. İndi nəinki Azərbaycan kitabxanalarında, hətta bir sıra xarici ölkələrin - İsveç, ABŞ, Macarıstan, Serbiya, Böyük Britaniya, Ukrayna, Belarus, Avstriya aparıcı kitabxanalarında "Azərbaycan guşələri" yaradılmışdır.

Azərbaycanın dünyada tanıdılması, ölkənin beynəlxalq nüfuzunun artırılması istiqamətində respublikanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, "YUNESKO" və "İSESKO"-nun xoşməramlı səfiri, xanım Mehriban Əliyeva çox mühüm işlər görür. Onun Azərbaycan mədəniyyətinin inkişafına, milli-mənəvi dəyərlərimizin təbliğinə göstərdiyi diqqət və qayğı sayəsində mədəniyyətimiz, incəsənətimiz dünya arenasında tanınır, bəyənilir və qəbul olunur. Təsadüfi deyil ki, "YUNESKO"nun qərarı ilə bir çox tarixi, mədəni və mənəvi abidələrimiz bəşəri mədəniyyətə malik abidələr siyahısına daxil edilmişdir. Heydər Əliyev Fondu 2007-ci ildən başlayaraq xarici ölkələrdə festivallar, mədəniyyət günləri, sərgilər, Azərbaycana həsr olunmuş kitabların təqdimatları, Azərbaycanı, onun tarixini və zəngin mədəniyyətini tanıtmaq məqsədilə mütəmadi olaraq müxtəlif ölkələrdən məktəblilərin, tələbələrin Azərbaycana səfərlərini təşkil edir, Azərbaycanla bağlı müxəlif müsabiqələr keçirir.

Kitabxanaçılar da Azərbaycanşünaslığın (diyarşünaslığın) təbliğində yaxından iştirak etməli, cəmiyyətimizin, xalqımızın bu sahədəki informasiyaya artan tələbatını ödəməklə öz töhfəsini verməlidirlər.

## Kitabxanalarda diyarşünaslıq ədəbiyyatının təbliği

Azərbaycan xalqının qədim tarixi, zəngin mədəniyyəti var. Xəzərin sahillərində yerləşən, Qərblə Şərqin qovuşduğu bir məkan olan Azərbaycan qədim dövrlərdən təkcə tükənməz təbii sərvətlər mənbəyi və neft diyarı kimi yox, həm də böyük tarixi şəxsiyyətlər, elm, mədəniyyət və incəsənət xadimləri yetirən bir məmləkət kimi tanınmışdır. Görkəmli şəxslərin fəaliyyəti nəticəsində Azərbaycan elm, incəsənət, mədəniyyət və s. üzrə dünya sivilizasiyasına öz bəhrəsini vermişdir.

Doğma Vətənin, onun qəhrəman övladlarının, zəngin sərvətlərinin qürur hissi ilə təbliği məqsədilə kitabxanaların və kitabxanaçıların üzərinə bir sıra vəzifələr düşür. Diyarşünaslığın təbliği ölkənin hər bir guşəsinin öyrənilməsindən başlayır, çünki Vətəni yaxşı tanımadan onu sevmək çətindir. Odur ki, gənclərin dünyagörüşünün inkişafı və formalaşması üçün onların anadan olduğu diyarın tarixi, maddi-mənəvi sərvətləri, yetişdirdiyi şəxsiyyətlər, onların ictimai fəallığı və s. haqqında məlumatlar verən diyarşünaslıq ədəbiyyatının təbliği böyük əhəmiyyətə malikdir. Bu istiqamətdə kitabxanalarımız bütün vasitələrdən istifadə etməli, təbliğatın ən müxtəlif üsulları həyata keçirilməlidir.

İlk növbədə hər bir regionda yerləşən kitabxanaların interyerinin dövlət atributları, milli rəmzlər, Azərbaycan mədəniyyəti və incəsənətinin motivləri əsasında təşkili tövsiyə olunur. Belə ki, milli dövlətçiliyin istiqlaliyyətini, varlığını, xalqın ən ülvi arzularını lakonik, bədii, obrazlı dildə ifadə edən mühüm amillər - rəmzlər, bayraq, gerb və himndir. Bundan əlavə dövlətin pulu, həmçinin, təsis etdiyi orden və medallar da onun atributları hesab olunur. Bu rəmzlər dövlətin və ümumilikdə xalqın fəxri, qürur yeri hesab edilir. Təsadüfi deyildir ki, bu dövlət rəmzlərindən biri olan bayraq respublikamızın inzibati binalarında, orduda, sərhəddə qaldırılır, milli pulların üzərində dövlət nişanları həkk olunur.

Xarici ölkələrdən gələn nümayəndə heyətinin şərəfinə və ölkəmizdən xaricə gedən dövlət nümayəndə heyətinin qarşılanması şərəfinə dövlət bayraqları qaldırılır, himnlər səslənir. Belə bir mərasim böyük idman yarışları zamanı da həyata keçirilir. Müstəqil Azərbaycanın atributları və dövlət rəmzlərinin və ölkəyə dair digər məlumatların əks olunduğu stendlərin, guşələrin kitabxanalarda olması mühüm əhəmiyyət kəsb edir. Dövlət atributlarının mahiyyəti və əhəmiyyəti oxucular arasında geniş təbliğ olunmalı, gənc nəslin Azərbaycan bayrağına, gerbinə və himninə hörməti onun konstitusiya ilə müəyyənləşən vətəndaş vəzifəsi olduğu aşılanmalıdır.

Diyarı öyrənmə mənbələri xarakter və məzmununa görə müxtəlifdir. Bunlara arxeoloji qazıntıların nəticələri, təbii sərvətlərin öyrənilməsi, maddi mədəniyyət abidələri, yerli flora və faunanın öyrənilməsi, meşələrin xəritəsinin tərtibi və digər məsələlər aiddir. Diyarsünaslığın vəzifələrindən biri də yerli əhalinin etnik tərkibini aydınlaşdırmaq, tarixi abidələri aşkara çıxarıb, onların uçot və mühafizəsini təşkil etmək, şifahi xalq yaradıcılığını, yerli dialekt və şivələri və s. öyrənməkdir.

Diyarı öyrənmə mənbələri sırasında ***çap məhsulları*** mühüm yer tutur. Çap məhsulları (kitab və kitabçalar, resenziyalar, plakatlar, vərəqələr, nəşr edilmiş qrafika və xəritələr, ensiklopediyalar, ensiklopedik lüğətlər, məlumat kitabları, nəşri davam edən əsərlər, jurnallar, yerli qəzetlər), diyarla müxtəlif əlamətlərə görə bağlı olurlar: *nəşr olunduğu yerdən, vaxtdan, dildən asılı olmayaraq öz* ***məzmununa görə;*** *məzmunundan və digər əlamətlərindən asılı olmayaraq* ***nəşr yerinə görə və müəlliflik mənsubiyyətinə görə*** (yəni yerli müəlliflərin əsərləri və onların həyat və fəaliyyəti ilə bağlı) ölkəşünaslıq (diyarşünaslıq) ədəbiyyatı.

Kitabxananın diyarşünaslıq fəaliyyətinin əsasını – ***diyarşünaslıq fondu*** təşkil edir. Diyarşünaslıq fondu - diyar haqqında olan məlumatların sənəd formasında qeydə alınaraq saxlanmasıdır. O, oxucuların diyarşünaslıq ədəbiyyatına olan tələbatını ödə-

mək üçün, ölkəşünaslığa dair biblioqrafik məlumatların verilməsi üçün; diyarşünaslıq tədbirlərinin təşkili üçün və s. istifadə olunur.

Diyarı təbliğ etmək üçün ilk növbədə kitabxanaların fondunu ***diyarşünaslıq haqqında ədəbiyyatla komplektləşdirmək lazımdır.*** Kitabxanaların normal fəaliyyət göstərməsi və oxucu tələbatının ödənilməsi üçün kitabxana fondlarının yeni ədəbiyyat, müasir informasiya daşıyıcıları və dövri nəşrlərlə təmin edilməsi zəruridir. Kitabxana işçiləri ədəbiyyat seçərkən nəşriyyatların buraxdığı kitab kataloqları, Milli Kitabxananın nəşr etdiyi "***Birillik Azərbaycan kitabiyyatı", "Yeni kitablar",*** həmçinin qəzet və jurnal məqalələrinin toplandığı ***"Mədəniyyət, incəsənət və turizm haqqında yeni ədəbiyyat"*** adlı göstəricilərlə tanış olmalı, hər il respublikamız, o cümlədən şəhər və rayonlarımız haqqında çap olunmuş yüzlərlə kitab və dövri mətbuat materiallarına üstünlük verməlidirlər.

Kitabxanaya daxil olan diyarşünaslıq ədəbiyyatı növündən (çap və ya elektron) asılı olmayaraq vaxtında seçilməli, sistemləşdirilərək müxtəlif kütləvi tədbirlər vasitəsilə tələbatçılara çatdırılmalıdır. Alınan hər bir yeni ədəbiyyat haqqında kitabxananın saytı vasitəsilə və ya "Yeni kitablar" adlı sərgilərlə, məlumat bülletenləri və s. hazırlamaqla oxucuları xəbərdar etmək olar.

Keçirilən bütün tədbirlərdə, hətta ekskursiyaların təşkilində belə diyarşünaslığın təbliğinə xüsusi diqqət yetirmək lazımdır. Təbliğat işlərində, hərbi vətənpərvərlik tərbiyəsinin kökündə azərbaycançılıq məfkurəsi dayanmalı, azərbaycançılıq ideologiyası böyüyən nəslin ideyalarına, düşüncələrinə, baxışlarına, əməllərinə hopmalıdır.

Kitabxanada Azərbaycanın ***görkəmli şəxsiyyətlərinin*** həyat və fəaliyyətinə həsr edilmiş ədəbiyyatın təbliği həmişə öndə olmalıdır. Belə dahi şəxsiyyətlərdən biri, hər bir azərbaycanlının qürur duyduğu ulu öndər Heydər Əliyevdir. Gənclərin bu nümunədə tərbiyəsi çox böyük əhəmiyyət daşıyır. Kitabxanaçılar bu irsin öyrənilməsini həmişə diqqətdə saxlamalı, Heydər Əliyevin vətənə sevgi nümunəsindən geniş istifadə etməlidir. Ulu öndərin

“*Azərbaycan mənim ürəyimdir, mənim nəfəsimdir, mənim həyatımdır. Mənim bütün həyatım xalqıma, Vətənim Azərbaycana bağlı olub*” - deyərək, Səməd Vurğunun “*Azərbaycan*” şeirini əzbər söyləməsi də bu sevginin böyüklüyünü göstərir. Gənc nəsil Heydər Əliyev irsini daha dərindən öyrənməli, daim onun uzaqgörən siyasətindən, dövlətçilik, vətənpərvərlik ideyalarından bəhrələnməlidirlər. Bu məqsədlə kitabxanada ümummilli lider Heydər Əliyevin irsinin təbliği üçün yeni bir kitabın - məsələn, “Azərbaycanı gələcəyə aparan lider Heydər Əliyev” (Bakı, 2014) elektron təqdimatı nümunə kimi verilir:

## Kitabın elektron təqdimatının ssenarisi

| **Vaxt** | **Məzmunu** | **Köməkçi materiallar** |
|---|---|---|
| 3 dəq. | **Giriş sözü,** mövzunun elan edilməsi və təqdimatın əsas məqsədi.<br>Kitabın nümayişi. | 1.Tədbir zamanı kitabın elektron versiyası nümayiş etdirilir.<br>2. Təqdim edilən kitab “Yeni kitablar” başlıqlı stenddə sərgilənir və bütün tədbir iştirakçılarına nümayiş etdirilir. |
| 10-15 dəq. | **Kitab haqqında məlumat:**<br>**1. Kitabın məzmunu**<br>**2. Kitab hansı oxucu qrupu üçün nəzərdə tutulmuşdur:** konkret sahənin mütəxəssisləri, geniş oxucu kütləsi və ya tələbələr və b.<br>**3. Kitabın əsas xüsusiyyətləri:**<br>Kitab ümummilli lider Heydər Əliyevə həsr edilmişdir.<br>**4. Kitabın quruluşu və tərkib hissələri.**<br>**5.Təqdimatın elektron nümayişi.** (təqdimat zamanı şifahi şərh vermək mümkündür).<br>6.**Kitab haqqında əlavə məlumat:** tənqidçilərin fikirləri, resenziyalar, qeydlər və s. | 1.Elektron təqdimat mərasimində nümayiş edilən kitabın qısa məzmunu. (CD)<br>2.Əgər tədbir keçirilən məkanda İnternetlə əlaqə varsa, o kitabın yerləşdiyi sayt ünvanlarını göstərmək olar.<br>3.Kitab haqqında danışılan zaman ekranda kitabın üz qabığını və ya tədbirin plakatı, afişası varsa onu nümayiş etdirmək lazımdır. |

| | | |
|---|---|---|
| 10-15 dəq. | **Oxucularla dialoq.**<br>Kitab haqqında sualların müzakirəsi.<br>Təqdim edilən kitabın mövzusuna uyğun mümkün mövzuları müzakirə etmək. | |
| 5-10 dəq. | **Yekun söz.**<br>Kitabın elektron mətni yerləşdirilmiş İnternet ünvanların tədbir iştirakçıla-rının diqqətinə çatdırılması.<br>Kitabı hansı mağazalardan və hansı qiymətə əldə etmək barədə məlumat vermək.<br><br>Tənqidçilərin və sonda müəllifin çıxışı. | Ekranda iştirakçılar üçün əlaqə vasitələrinin nümayişi.<br>**Sayt:**<br>**E-mail:**<br>**Fax:**<br>və s. |

Son dövrlərdə informasiya texnologiyalarının inkişafı ilə əlaqədar olaraq insanlar özlərinə lazım olan məlumatları əsasən İnternet vasitəsilə daha tez və operativ əldə etməyə üstünlük verirlər. İndi artıq regionlarda da kitabxanaların öz saytı fəaliyyət göstərdiyi üçün texniki təchizatı yaxşı olan hər bir MKS-də kitabxananın materialları əsasında elektron resurslar – elektron kitablar, məqalələr, fotoşəkillər, audio və video materiallardan ibarət (və ya mövcud olan resursları tapıb, bir araya toplayaraq) diyarşünaslıq xarakterli ***Elektron məlumat bazası*** hazırlamaq və kitabxananın saytında yerləşdirmək məqsədəuyğun olardı. Lakin unutmaq olmaz ki, məlumat bazaları mütəmadi olaraq yenilənməli, yeni məlumatlarla zənginləşməlidir. Bundan başqa kitabxananın saytında diyarşünaslığa aid yeni kitablar, keçiriləcək tədbirlər haqqında oxuculara müntəzəm şəkildə məlumat vermək (elan, anons) lazımdır.

Böyüməkdə olan gənc nəslə tarix-diyarşünaslıq məzmunlu əsərlərin tövsiyə edilməsi vətənpərvərlik tərbiyəsinin formalaşmasında böyük əhəmiyyət kəsb edir. Azərbaycanın təbii-coğrafi mühiti, sərvətləri, Azərbaycan xalqının tarixi, adət-ənənələri, tarix və mədəniyyət abidələrinin yaradılması və onun tədqiqində arxeoloqlarımızın vətənpərvərlik fəaliyyətləri, vətənin müdafiəsi-

nə qalxmış xalq qəhrəmanları, Milli ordunun təşkili və s. Haqqında ədəbiyyat vətənpərvərlik tərbiyəsi üçün dəyərli vasitələrdir. Vətənpərvər olmaq üçün insan vətənini, elini, obasını, onun tarixini yaxşı öyrənməlidir. Vətənimizin tarixi, onun qəhrəman övladları bədii ədəbiyyatda, kino və teatr sənətində, rəssamlıqda, heykəltəraşlıqda geniş əks olunmuşdur. Bunlar yetişməkdə olan nəslin vətənpərvərlik tərbiyəsində mühüm rol oynamaqla yanaşı müstəqillik dövrünün tarixinin daha dərindən öyrənilməsinə geniş imkanlar açır.

Görkəmli yazıçı-publisist Mustafa Çəmənlinin Qarabağ xanlığının tarixindən bəhs edən, hər bir oxucuda güclü vətən, torpaq duyğusu oyadan "***Xallı gürzə***" romanı yada düşür. Bu roman başıbəlalı Qarabağ xanlığının tarixindən, Şuşanın təməlini qoyan Pənah xan Cavanşirdən bədii şəkildə söhbət açırsa, yenə də Mustafa Çəmənlinin başqa bir romanı "***Fred Asif***" oxucunu müasir dövrümüzə gətirir, Milli Qəhrəmanımızın örnək olan həyatından bəhs edir. Aqil Abbasın tək ədəbi aləmdə deyil, cəmiyyətimizdə həqiqətən qəfil dolu effekti yaradan "***Dolu"*** romanı oxuyanları çox sarsıtmışdı. Daha sonra Mövlud Süleymanlının "***Erməni adındakı hərflər***" analitik romanı tarixi düşmənimizin xislətini öyrənmək, tanımaq, ermənilik sindromunu bilmək və düşmənə münasibətdə özünü də tanımaq baxımından faydalı əsər olmaqla bərabər, parlaq nəsr nümunəsidir.

M.S.Ordubadinin "***Qanlı illər***", İ.Əliyevin "***Qanlı günlərimiz***", B.Vahabzadənin "***Şəhidlər***" poeması, Ramiz Novruzun "***Hələ sevirəm deməmişdilər***" və Hüseynbala Mirələmovun "***Xəcalət"*** pyesləri, "***Fəryad***", "***Ağ atlı oğlan***", "***Xoca", "Dolu***" və s. bədii filmləri, "***Haray***", "***Xocalı harayı***" və s. sənədli filmləri, "***Xocalı soyqırımı***" faciəsini əks etdirən "***Ana fəryadı***" heykəli, Bakının mərkəzində və Azərbaycanın bütün rayon mərkəzlərində salınmış "***Şəhidlər xiyabanı***", 1990-cı ilin yanvarında baş verən "***Qara Yanvar***" abidə kompleksi, rəsm əsərləri və xalçalar, 20 noyabr 1991-ci ildə vertalyot terroru nəticəsində həlak olan Azər-

baycan Respublikasının dövlət adamlarının qəbirüstü xatirə abidələri və onlarca bu qəbildən olan nümunələri göstərmək olar.

Torpaqlarımızın işğal altında olduğu bir şəraitdə uşaqlarda vətənə, torpağa, elə-obaya sevgi, məhəbbət hissini formalaşdırmaq məqsədi ilə müxtəlif tədbirlər həyata keçirilir. Torpaqlarımızın işğal günlərində bunu uşaqlara faciə kimi deyil, bu faciəni törədənlərə nifrət hissi kimi aşılamaq lazımdır. Gənc yaşlarında vətən üçün canını fəda etmiş gənclərimizin sayı kifayət qədər çoxdur. Vətənin dar günündə vətən harayına yollanan övladlarımız, cavan ömürlərini qurban verən oğullarımızın hər biri yeni nəsillər üçün qiymətli örnəkdir. ***Mübariz İbrahimov, Fərid Əhmədov, Cavanşir Rəhimov*** və s. gənc şəhidlərimiz bugünkü gənclərə vətən sevgisinin aşılanması üçün bir məktəbdir. Cənab prezident İlham Əliyevin də dediyi kimi: "Azərbaycan bir qarış torpağını belə düşmənə verməyəcək". Azərbaycan gənci Vətənini sonsuz məhəbbətlə sevir, Vətənin azadlığı və bütövlüyü, millətin birliyi və səadəti uğrunda hər şeyə hazırdır.

Kitabxanada Azərbaycan naminə həyatlarından keçmiş bu qəhrəmanlara həsr edilmiş tədbirlərin (guşə, anım günləri və s.) təşkili, bədii əsərlərin təbliği, filmlərə baxış, heykəllərə, abidələrə ekskursiyaların (***əyani və ya virtual***) təşkili tövsiyə olunur.

**Nümunə 1.**

- ***"Vətənin sadiq övladları"*** - mövzusunda hər hansı bir filmə, məsələn, "***Xoca"*** bədii filminə baxış və onun müzakirəsini təşkil etmək olar. Filmə baxışda uşaq və yeniyetmələrlə bərabər böyüklərin də iştirakı nəzərdə tutulur.

"***Xoca"*** bədii filminin müzakirəsi zamanı ermənilərin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda törətdiyi soyqırımda Azərbaycan əsgərinin mərdanəliyi, vətənpərvərliyi ön plana çəkilməli, ermənilərin törətdikləri vəhşiliklər, öz çirkin niyyətlərinə nail olmaq üçün hər cür alçaqlığa əl atmaları daha qabarıq şəkildə iştirakçıların nəzərinə çatdırılmalıdır. Bu məqsədlə

müzakirə zamanı aşağıdakı suallardan istifadə olunması məqsədəuyğundur:

- Filmin mövzusunu nə təşkil edir?
- Ələkbərin simasında Azərbaycan əsgərinə xas hansı yüksək mənəvi keyfiyyətləri görürsünüz?
- Filmdə ermənilərin çirkin niyyəti, onların əsl siması necə açılır və azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər zamanı hansı amillərdən istifadə edirlər?
- Xocalının ermənilər tərəfindən mühasirəyə alındığını görən Ələkbər hansı seçim qarşısında qalır? Onun yerində olsaydınız siz necə hərəkət edərdiniz?
- Erməni-rus silahlı birləşmələri ilə qeyri-bərabər vuruşmada Azərbaycan döyüşçülərinin göstərdikləri müqavimət necə əks olunmuşdur?
- "***Uzaq sahillərdə***" partizan Mixaylo ilə "***Xoca***" filmindəki Ələkbər obrazı arasında oxşar və fərqli cəhətlər hansılardı?
- Ermənilərin qədim Xocalı şəhərində törətdikləri qətliamdan bəhs edən filmdə müharibələrin bütün dəhşətlərinin tamaşaçıya çatdırılmasına nə dərəcədə nail olunmuşdur? və s.

Yuxarıda adları çəkilən filmlərdə vətən torpaqlarının qaytarılmasına, qaçqınlarımızın öz yurd-yuvalarına dönəcəklərinə inam kimi böyük amala çağırış diqqəti cəlb edir. Bu ekran əsərlərində müqəddəs ideyaya böyük inamla yanaşı, erməni işğalçılarının xalqımıza qarşı törətdikləri vəhşiliklər də əksini tapmışdır. Bütün bu filmlərin süjet xəttində bədnam qonşularımız tərəfindən xalqımızın başına gətirilən fəlakətlər durur.

Nümunə 2.

"***Gəzdim səni diyar-diyar***" mövzusunda turizm ekskursiyasının təşkili (əyani və ya virtual)

Ekskursiya maarifləndirmə məqsədi daşıyır və səriştəli ekskursiyaçının rəhbərliyi ilə həyata keçirilir. Ekskursiyaçı öz vətəninin tarixini mükəmməl bilməli, ona verilən suallara düzgün cavab verməyi bacarmalıdır. Ona görə də, kitabxanaçı gənc oxucular üçün ekskursiya təşkil edərkən rayonun ərazisində yerləşən

tarix-diyarşünaslıq muzeyinin işçilərindən və ya ərazidəki tarix müəllimlərinin köməyindən istifadə etməlidir. “***Turist marşrutu***” - ekskursiyanın vaxtı, cəlb ediləcək ekskursiya qrupları öncədən müəyyən edilir. Qruplar yaradılarkən ilk növbədə ekskursiyaçıların yaş həddi və maraq dairəsi nəzərə alınmalıdır. Kitabxanaçı bu işə rayon ərazisində fəaliyyət göstərən ümumtəhsil məktəblərinin şagirdlərini, texniki peşə məktəblərinin tələbələrini və digər oxucuları cəlb edə bilər. Hazırlıq müddətində ekskursiya təşkil ediləcək ərazidəki tarixi abidələr, onların həmin əraziyə, mühitə uyğunluğu, yaranma zərurəti, tarixi, xalqın adət-ənənəsi, məişəti və s. haqqında məlumat verən ədəbiyyatı təbliğ etmək üçün sərgilər təşkil etmək tövsiyə olunur.

Paytaxtda ekskursiya zamanı ekskursiyaçılar ilk növbədə Fəxri Xiyabanda ümummilli lider, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin və onun xanımı Zərifə xanım Əliyevanın məzarlarını ziyarət etməli, sonra hamı üçün müqəddəs yer sayılan Şəhidlər Xiyabanına getməli və orada vətən yolunda, sərhədlərimizin toxunulmazlığı uğrunda canlarını qurban vermiş qəhrəman oğul və qızlarımızın ölməz ruhunu yad etməlidirlər. Bakıda 1990-cı ilin 20 yanvarında baş vermiş faciə haqqında məlumat verilməlidir. Ekskursiyanın sonunda iştirakçılarla qısa sorğu (təəssüratları barədə) keçirmək olar.

Nümunə kimi verilmiş hər iki tədbirə hazırlıq işləri apararkən kitabxananın saytında keçiriləcək tədbir haqqında anons və ya elan yerləşdirmək lazımdır. Orada tədbirin keçiriləcəyi ünvan, dəqiq tarix, saat, iştirak edəcək qonaqlar barədə məlumat verməklə tədbirə marağı artırmaq olar. Dəvətnamələr hazırlayıb dəvət olunacaq şəxslərə göndərilməsi tövsiyə olunur.

Diyarşünaslığa aid çap məhsullarının təbliğinin ən çox yayılmış üsulu əyani təqdimetmə növü olan ***diyarşünaslıq sərgiləridir***. Belə sərgilər öz məzmununa görə müxtəlifdir: həmişə fəaliyyət göstərən – ***daimi sərgilər, universal mövzulu, əlamətdar və tarixi günlərə aid, yeni daxil olan materialların sərgisi*** və s. Yeni daxil olan materialların sərgilərinin (sərgidə ədəbiyyatı şöbələr (KBT-

yə əsasən) üzrə düzmək məsləhətdir). dövriliyi kitabxananın imkanından, yeni diyarşünaslıq ədəbiyyatının həcmindən asılı olaraq, aylıq, rüblük, yarımillik olur.

Hazırlanacaq sərgilərdə diyar haqqında tam məlumatın əks olunması çox əhəmiyyətlidir. Diyarla bağlı olan hər bir məlumatın oxucuya çatdırılması diyarın (ölkənin) tarixinin, mədəniyyətinin, incəsənətinin, dövlətçiliyin təbliğinə gətirib çıxarır. Sərgilərdə həmin şəhər və rayon haqqında məlumat verən kitablarla yanaşı, digər sənəd növləri – müvafiq mövzulara aid diaqramların, kitabxanada olmayan kitabların fotoşəkillərinin, respublika muzeyindən alınmış müxtəlif sənədlərin surətlərinin və şəkillərinin, diyarşünaslıqla bağlı qəzet və jurnal materialları, fotolar və CD-lərin də nümayiş etdirilməsi tövsiyə olunur. Nümunə üçün ***"Mənim doğma yurdum – Tərtərim"*** adlı sərginin sxemi verilir:

***I Bölmə.Tərtərin tarixi keçmişi***
***İzahlı mətn:***
**Yaranma tarixi** - 27.01.1934
**Ərazisi** - 960 kv.km
**Əhalinin sayı** - 99.0 min nəfər

***Sitat.*** Qarabağın səfalı guşələrindən olan Tərtər rayonu ən qədim yaşayış məskəni olub, dağ ilə aranın qovuşduğu ərazidə yerləşir. Son dərəcə gözəl və səfalı bir ərazidə yerləşən Tərtər barədə Aleksandr Düma demişdir: "*Yalnız Tərtəri görməyənlər İsveçrəni görməkləri ilə qürrələnə bilərlər*".

***II Bölmə:*** **Qəhrəman Tərtər**

Bu bölmədə Tərtərin müharibə illərindəki fəaliyyətinə həsr olunmuş materiallardan istifadə etmək olar.

***Sitat:*** Qarabağa çox yaxın olan Tərtər erməni təcavüzündən kifayət qədər əziyyət çəkib. Hal-hazırda keçmiş Ağdərə rayonu ərazisindən rayonun tabeliyinə verilmiş yaşayış məntəqələri işğal altındadır. Müharibə dövründə Tərtər rayonundan 307 nəfər şəhid

olmuş, 3 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

2010-cu ilin iyun ayının 19-da Tərtərin Çaylı kəndi uğrunda gedən döyüşlərdə Azərbaycan ordusunun əsgəri Mübariz İbrahimov çoxlu sayda erməni əsgərini öldürərək şəhid olmuş və bu igidliyinə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

***III Bölmə:* Tanınmış tərtərlilər**

Bu bölmədə Tərtərin görkəmli şəxslərinə həsr edilmiş materiallardan istifadə olunmalı, onlar haqqında qısaca məlumat verilməli, Tərtərin şair və yazıçılarının əsərləri nümayiş etdirilməlidir.

***IV Bölmə:* Tərtər bu gün**

Bu bölmədə gündən-günə inkişaf edən Tərtər, onun səfalı guşələri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Tərtərə səfəri haqda olan materiallardan istifadə edə bilərsiniz.

***Sitat:* "**Tərtər rayonu da bizim hamımız üçün, Azərbaycan üçün çox əziz, doğma rayondur. Siz demək olar ki, ön xətdəsiniz, düşmənlə üz-üzəsiniz. Müharibə illərində də tərtərlilər çox cəsarətlə vuruşmuşlar, öz doğma torpaqlarını müdafiə etmişlər. Buna görə mən sizə öz minnətdarlığımı bildirmək istəyirəm. İndi isə Tərtərin yeni dövrü başlayır. Mən əminəm ki, burada görülmüş işlər və bundan sonra görüləcək işlər rayonun hərtərəfli inkişafına xidmət göstərəcəkdir".

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

***İzahlı mətn.*** Rayonda 24 tarix və mədəniyyət abidəsi var. Onlardan 1 ədədi dünya, 15 ədədi ölkə əhəmiyyətli arxeoloji abidə, 7 ədədi yerli əhəmiyyətli memarlıq, 1 ədədi isə yerli əhəmiyyətli arxeoloji abidədir. Tərtər rayonu ərazisində 3 məscid, 15 kurqan, 2 nekropol, 2 yaşayış yeri, 1 buzxana, 1 türbə mövcuddur.

Sərginin daha zəngin və maraqlı təsir bağışlaması üçün, həmçinin rayonun özünün və ya abidələrin maketlərindən, kiçik formada düzəldilmiş modellərdən də istifadə etmək olar. Sərgidə kitabxananın fondunda olan digər kitabların siyahısını (zərf yerləşdirib siyahını onun içinə qoymaq olar) yerləşdirmək tövsiyə olunur. Sərgi elə təşkil edilməlidir ki, rayona gələn hər bir qonaq rayonu gəzmədən belə, rayonun tarixi ilə tanış ola bilsin. Sərgi rayonun tarix-diyarşünaslıq muzeyinin köməyi ilə, birgə təşkil olunsa daha maraqlı olardı.

Sərginin təşkilində rayonun fərqləndirici xüsusiyyətləri, mövcud problemlər, orada yerləşən tarixi abidələr və onların spesifik xüsusiyyətləri nəzərə alınmalıdır.

Diyarşünaslıq ədəbiyyatının təbliğinə uşaq kitabxanalarında xüsusi fikir verilməlidir. Xüsusilə, uşaqların istək və maraqlarını, sosial-psixoloji xüsusiyyətlərini, fəal işə, müstəqil yaradıcılığa münasibətlərini nəzərə alan kitabxanalar diyarşünaslıq ədəbiyyatını təbliğ etmək üçün kütləvi tədbirlərin müxtəlif formalarından istifadə etməlidirlər. Uşaq kitabxanası uşaq və gəncləri mütaliəyə cəlb etməklə, onlara Vətən (diyar) haqqında və mənəvi irsin qorunması haqqında məlumatlar verməlidir.

Uşaq kitabxanasının interyerinin oxucuların və onların valideynlərinin köməyi ilə yerli koloritdə (Azərbaycan mədəniyyəti və incəsənətinin motivləri əsasında) tərtib edilməsi ilə onlarda diyarşünaslığa maraq oyatmaq olar. Yerli rəssamların diyara həsr olunmuş rəsm əsərlərini otaqların divarlarından asmaqla, kitabxanada qədim cəhrəni, samovar və bədii tikmələri, bəzək, məişət əşyalarını və bir çox digər qədim əşyaları əks etdirməklə diyarşünaslıq ruhu yaratmaq olar.

Diyarşünaslıq ruhunu uşaq kitabxanasının fəaliyyətinin əyani təbliğat növlərinə də tətbiq etmək olar: diyarşünaslıq kartoteka yeşiklərinin üstündə, elan, afişa, kitabxana və kitab stellajlarının tərtibatında və s. diyara aid vizual simvollardan istifadə etmək olar. Diyarın rəsmi rəmzindən (emblemindən) ölkəşünaslıq və diyarşünaslığa aid hazırlanmnış bukletlərdə və diyarşünaslıqla

bağlı bayramların iştirakçıları üçün hazırlanan dəvətnamələrdə, elanlarda, sərgilərin tərtibatında, reklam lövhələrində, kitab stellajlarının üstündə, diyarşünaslıqla bağlı yazılan vəsaitlərin üz qabığında və s. istifadə etmək olar.

Uşaq kitabxanalarında ***kitabxana albomları*** hazırlamaq məqsədəuyğun olardı. Bu məqsədlə hər bir məktəbliyə diyarşünaslıqla bağlı bir mövzu verilir və həmin mövzuda albom tərtib etmək üçün lazımi materiallar (ədəbiyyat) kitabxanaçıların köməyi ilə kitabxana şəraitində toplanır. Məktəblilər tapşırılan mövzularda albomları kitabxanaçının iştirakı ilə hazırlayırlar. Belə albomların tərtibi zamanı məktəbli oxucular lazımi materialları araşdırmalı olur, diyarla, onun tanınmış şəxsiyyətlərinin həyatı ilə yaxından tanış olur ki, bu da onların doğma diyarı haqqında biliklərini artırır.

Kitabxanada uşaqları diyarla bağlı fəal yaradıcılığa, tədqiqat işinə, axtarışlara yönəldən dərnəklərin, müsabiqələrin, maraq klublarının və s. (məsələn ***"Doğma diyar", "Tarix və biz"*** və s. adlı gənclər klubu, diyarşünaslıq guşələri, ***"Öz diyarını kim daha yaxşı tanıyır?"*** və s. adlarda inşa və rəsm müsabiqələri) təşkil olunması məsləhətdir. Həmçinin, yerli yazıçıların, şairlərin kitablarının ənənəvi və elektron təqdimatı, rəssamların, sənətkarların əl işlərindən ibarət sərgilərin təşkili, məşhur həmyerlilərlə görüşlərin keçirilməsi də tövsiyə olunur. Bu görüşlər çox vacibdir: uşaqlar yerli məşhur insanlarla tanış olur, araşdırmalar və ekskursiyalar vasitəsilə diyarın inkişaf tarixini, ailə ənənələri və milli adətlərimizin müxtəlif cəhətlərini öyrənirlər.

Kitabxanada məşhur həmvətənlərimizin xatirəsinə həsr olunmuş ədəbiyyatı təbliğ etmək üçün tədbirlər, ölkəşünaslıq həftəsi, tarix-diyarşünaslıq günlərinə həsr olunmuş tədbirlərin keçirilməsi də tövsiyə olunur. Müxtəlif adlarda ***"Kitabxanaların diyarşünaslıq fəaliyyəti: müasir vəziyyət və perspektivlər", "Uşaq kitabxanalarında diyarşünaslıq xidməti: ənənələr və innovasiyalar"*** və s. ölkəşünaslıq elmi-praktiki konfranslarının keçirilməsi də məqsədəuyğundur.

Ölkəşünaslıq (diyarşünaslıq) ədəbiyyatının təbliğində kitabxanaçılara kömək göstərmək məqsədi ilə hər ay MKS-də keçirilən ***seminar-məşğələlərin*** böyük rolu vardır. Seminarlarda kitabxanaların metodik və biblioqrafik fəaliyyəti, o cümlədən diyarşünaslıq biblioqrafiyası sahəsində apardıqları işlərin əlaqələndirilməsi, diyarşünaslıq ədəbiyyatının təbliği ilə bağlı keçiriləcək kütləvi tədbirlərin keçirilməsi qaydaları haqqında məsləhət verilməlidir. Əgər seminarda söhbət diyarşünaslıq kartotekasının yaradılmasından gedirsə onda MKS-nin biblioqrafı kitabxanaçıları diyarşünaslıq kartotekasının təşkili və təkmilləşdirilməsi metodikası ilə tanış etməli və belə kartotekanın təxmini sxemini verməlidir. Çünki, diyarşünaslıq ədəbiyyatının təbliğində əsas yeri diyarşünaslıq kartotekaları tutur.

Diyarşünaslıq ədəbiyyatının təbliğində kitabxanaçıların yaradıcılığı həlledici əhəmiyyətə malikdir. Ona görə də ən yaxşı kitabxanaçının və ən yaxşı kitabxananın iş təcrübəsini öyrənib, ümumiləşdirmək bu gün diqqət mərkəzindədir. Təcrübə əsasında kitabxanaçılar öz peşəkarlığını artırmaqla diyarşünaslıq ədəbiyyatının daha yaxşı təbliğinə nail olurlar. MKS-nin metodika və biblioqrafiya şöbəsinin metodistləri və biblioqrafları digər MKS-lərin qabaqcıl iş təcrübəsini müşahidə nəticəsində öyrənməli və yerlərdə tətbiqinə çalışmalıdırlar.

## Diyarşünaslıq üzrə biblioqrafik fəaliyyət

Oxucuların diyarşünaslığa dair müxtəlif sorğularının ödənilməsi, ən dəyərli diyarşünaslıq ədəbiyyatının fəal təbliği, kitabxanaya yeni daxil olan ədəbiyyat haqqında məlumat verilməsi üçün hər bir kitabxanada soraq-biblioqrafiya aparatı yaradılmalıdır.

Soraq-biblioqrafiya aparatının həcmi və tərkibi müxtəlif tip kitabxanaların profilindən, xarakterindən asılı olaraq müxtəlif olur. Kitabxananın xidmət etdiyi ərazinin xüsusiyyətləri və oxucu kontingenti soraq-biblioqrafiya aparatının məzmununa və tərkibinə təsir göstərir.

Kitabxananın tipindən və fondundan asılı olmayaraq bütün kitabxanaların soraq biblioqrafiya aparatı iki hissədən ibarətdir: ***soraq və biblioqrafik nəşrlər fondu, kataloq və kartoteka sistemi***.

Diyarşünaslıq materiallarından istifadə onun məzmununun açılma dərəcəsindən, onlar haqqında biblioqrafik materialların oxucuya çatdırılmasından asılıdır. Kitabxanaların diyarşünaslıq fondunun hərtərəfli açılması ilk növbədə kataloq və kartotekalardan asılıdır. Kitabxanada daha iki kartotekanın da olması vacibdir.

1.Diyarşünaslığa dair biblioqrafik vəsaitlərin kartotekası;

2.Diyar üzrə əlamətdar və tarixi günlər kartotekası.

***Diyarşünaslıq kartotekası*** - diyarşünaslıq soraq-biblioqrafiya aparatının mühüm tərkib hissəsidir. Onda diyar haqqında yerli kitabxanalarda olan müxtəlif məzmunlu, müxtəlif tip və növlərdə çap məhsulu tam əks olunur (kitablar, kitabdan bölmələr, ayrı-ayrı fəsillər, abzaslar, məcmuələrdən, dövri və ardı davam edən nəşrlərdən məqalələr və resenziyalar, təsviri və kartoqrafik materiallar, not nəşrləri). Həmin kartotekada kitabxananın fondunda yerləşməsindən asılı olmayaraq şəhər və rayon haqqında materiallar daha dolğunluqla əks olunur. Kitabxanada olmayan diyarşünaslıq nəşrlərinin harada (filial kitabxanası, Heydər

Əliyev Mərkəzi, ərazidə yerləşən digər kitabxana, qonşu rayon kitabxanaları, iri kitabsaxlayıcılar, şəxsi kitabxanalara və s. isnad olunur) olması kartoçkada qeyd edilir.

Kartoteka üçün məlumatın toplanmasının müxtəlif üsulları vardır. Təcrübədə daha çox yayılmış üsul MKS-nin fondunda olan diyarşünaslıq ədəbiyyatının siyahısının əlaqədar kitabxanalara göndərilməsidir.

Şəhər və rayon MKS-ləri üçün ölkəşünaslıq ədəbiyyatını üzə çıxarmağın digər bir mənbəyi Milli Kitabxananın "***Azərbaycanşünaslıq***" toplu kataloq və kartotekasıdır. Burada materiallar şəhər və rayonlar üzrə qruplaşdırılır. Kitabxana işçiləri özlərinə lazım olan materialları aşkara çıxarmaq üçün bu kataloq və kartotekalar ilə tanış olmalı və öz fondlarını zənginləşdirməlidirlər.

Hazırda MKS-lərdə kataloq və kartotekada ədəbiyyat Kitabxana Biblioqrafiya Təsnifatının (KBT) kütləvi kitabxanalar üçün qısaldılmış variantı əsasında qruplaşdırılır. Ədəbiyyatın analitik təsviri AZS 754-2013 İnformasiya, Kitabxana və nəşriyyat içi üzrə standartlar sistemi. Biblioqrafik yazı. Biblioqrafik təsvir. Azərbaycan Respublikasının Dövlət Standartı əsasında həyata keçirilir. Diyarşünaslıq biblioqrafiyasında analitik təsvirdən geniş istifadə olunur. Diyarşünaslıq kartotekasının KBT cədvəli əsasında sxemi nümunə üçün təqdim edilir:

**Təsnifatın əsas bölmələri**

| | |
|---|---|
| **D0** | **Diyar bütövlükdə** |
| D06 | Diyar haqqında rəhbər və qanunvericilik materialları |
| D0,02 | Diyar haqqında ümumi məlumat |
| D0(2/7) | İnzibati-ərazi bölgüsü |
| **D1** | **Dövlət və hökumət adamları və diyar** |
| D11. | Dövlət və hökümət adamlarının diyar haqqında əsərləri |
| D18 | Diyarın görkəmli adamları diyar haqqında |
| **D2** | **Diyarın təbii sərvətləri və ehtiyatları** |
| D20 | Bütövlükdə diyarın təbiəti |
| D26 | Diyar ərazisinin geodeziyası, geofizika, geologiya və coğrafi xarakteristikası |
| D28 | Diyarın bitki və heyvanat aləmi. Diyarın ekologiyası |
| **D3** | **Diyarın texnikası** |

| | |
|---|---|
| D30 | Texnika ümumilikdə |
| D31 | Energetika |
| D32 | Radioelektrik |
| D33 | Dağ işi |
| D34 | Metallurgiya, Maşınqayırma, Cihazqayırma |
| D35 | Kimya təsərrüfatı |
| D36 | Yeyinti təsərrüfatı |
| D37 | Yüngül sənaye. Poliqrafiya, Foto, Kinomexanika, Mexanika |
| K38 | Tikinti |
| K39 | Nəqliyyat |
| **D4** | **Diyarın kənd və meşə təsərrüfatı** |
| D40 | Diyarın kənd təsərrüfatı |
| D41/42 | Diyarın ərazisində bitkiçilik |
| D43 | Diyarın meşə təsərrüfatı |
| D45/46 | Diyarda heyvandarlıq |
| D47 | Diyarda balıqçılıq və ovçuluq |
| D48 | Diyarda veterinariya. Heyvan xəstəlikləri |
| **D5** | **Tibb. Diyarın səhiyyəsi** |
| D51. 1. | Diyarda səhiyyənin təşkili. Sosial gigiyena |
| D51. 2. | Diyarda gigiyena |
| D51.9. | Diyarda infeksiyon və parazit xəstəlikləri. Epidemiya |
| D53/57 | Kliniki tibb |
| D58 | Tibbin ayrı-ayrı sahələri |
| **D6** | **Diyarın sosial-iqtisadi və ictimai-siyasi həyatı** |
| D60.5. | Diyarın sosial inkişafı |
| D60.6. | Diyarın statistikası |
| D60.7. | Diyarın əhalisi |
| D63. | Diyarın tarixi, arxeologiyası, etnoqrafiyası |
| D65 | Diyarın iqtisadiyyatı |
| D66 | Diyarın ictimai-siyası həyatı. Diyarın ictimai-siyasi təşkilatları |
| D67 | Diyarın yerli idarə və hökumət orqanları |
| D68 | Diyarda əhali arasında aparılan hərbi-vətənpərvərlik işi. Mülki müdafiə |
| **D7** | **Diyarın mədəni və elmi həyatı. Diyarın maarifi** |
| D71 | Diyarın mədəni həyatı. Mədəni quruculuq |
| D72 | Diyarın elmi həyatı |
| D73 | Diyarın elmi-informasiya fəaliyyəti |
| D74 | Diyarda xalq maarifi |
| D75 | Diyarda bədən tərbiyəsi və idman |
| D76 | Diyarın kütləvi informasiya vasitələri |
| D77 | Diyarın mədəni-maarif işi |
| D78 | Diyarın kitabxana-biblioqrafiya fəaliyyəti |
| D79 | Diyarın tarixi və mədəni abidələrinin mühafizəsi. Muzey işi. Arxiv işi |
| **D81/85** | **Diyarda yaşayan xalqların dilləri. Folklor. Diyarın ədəbi və bədii həyatı** |
| D81 | Diyarda yaşayan xalqların dilləri |
| D82 | Diyarın folkloru. Diyar folklor nümunələrində |

| | |
|---|---|
| D83 | Diyarın ədəbi həyatı. Diyar bədii ədəbiyyatda |
| D84 | Yerli yazıçıların bədii ədəbiyyatı (əsərləri)<br>Diyarı tərənnüm edən bədii ədəbiyyat |
| D85 | Diyarın incəsənəti. Diyar incəsənətdə |
| **D86** | **Diyarda din** |
| D86. 1 | Diyarda azad fikir |
| D86. 3. | Diyarda din. Məscidlər |
| D86. 38 | İslam |
| **D87** | **Diyarda mənəvi və estetik tərbiyə** |
| D87.7. | Mənəvi tərbiyə |
| D87. 8. | Estetik tərbiyə |
| **D91** | **Diyar haqqında biblioqrafik vəsaitlər** |
| D91.1. | Ümumi xarakterli biblioqrafik vəsaitlər |
| D91.3. | Növ, forma, janr və başqa əlamətlərinə görə tərtib olunmuş biblioqrafik vəsaitlər |
| D91. 9. | Sahəvi biblioqrafik vəsaitlər |

**Qeyd**: *D-diyarı bildirir, yəni hər bir rayon (şəhər) öz adının baş hərfini D-hərfinin yerinə yaza bilər.*

Sxemi ixtisar etmək mümkündür. Bu zaman müvafiq ədəbiyyatı olan bölmələri saxlamaq lazımdır. Eyni zamanda, ədəbiyyatın sayından asılı olaraq diyarın iqtisadiyyat və mədəniyyətini əks etdirən əlavə yarımşöbə və rubrikalar da yaratmaq olar. Bütün rubrikalarda (bədii ədəbiyyatdan başqa) materialların kartoçkaları daxilində təsvirlər nəşrin növlərinə görə qruplaşdırılır, bölmələr daxilində qruplaşmış kartoçkalar əks xronologiya (***kartotekanın əvvəlində yeni, sonra isə köhnə ədəbiyyat***) üzrə düzülür. Belə düzülüş yeni ədəbiyyatı (materialı) oxucuya tövsiyə etmək üçün daha əlverişlidir. Hər ilin materialı xüsusi ayrıc altında məsələn: "**2014**", "**2013**" və s. düzülür ki, bu da sonralar köhnəlmiş kartoçkaların kartotekadan çıxarılmasını asanlaşdırır.

Bədii ədəbiyyat bölməsini iki hissədə "***Rayonumuz bədii ədəbiyyatda***" və "***Yerli yazıçılar***" adlı ayrıclarla vermək olar. "Yerli yazıçılar" bölməsində hər bir yazıçı haqqındakı materiallar soyadların əlifbası ilə, rubrikada ilk növbədə yazıçının əsərləri, seçilmiş əsərləri, sonra isə ayrı-ayrı əsərləri sərlövhə üzrə əlifba sırası ilə düzülür. Yazıçının bədii irsindən sonra həyat və yaradı-

cılığı haqqında materiallar xüsusi rubrikada, müəlliflərin əlifbası üzrə yerləşdirilir. Kitabların təsvirini əks etdirən kartoçkalar məqalələrdən əvvəl düzülür. Rayon və respublikanın görkəmli adamları haqqında materiallar sahələr üzrə xüsusi ayrıcda - ***"Milli qəhrəmanlar", "Rayonumuzun şəhidləri", "Xeyriyyəçilər" və s.*** adlı ayrıclarda şəxslərin adlarının əlifbası üzrə düzülür.

Kartotekada ömrünün az və ya çox hissəsini həmin ölkədə, rayonda yaşayan, onun siyasi, təsərrüfat, elmi və ya mədəni həyatında iştirak edən, əsərləri yerli mətbuatda nəşr edilən yerli xadimlərin - şəxslərin adları əks etdirilir. Həmçinin, kartotekaya yerli xadim olmayan, lakin həmin respublika ilə bu və ya başqa səbəbdən sıx əlaqədar olan şəxslərin adları da daxil edilir.

Diyarşünaslıq üzrə şəxslər kartotekası üçün adların seçilməsində əsas şərt, şəxsin həmin respublika və ya region ilə əlaqədar olan yaradıcılığı və tərcümeyi-halının nəzərə alınmasıdır. Diyarda anadan olub xaricdə fəaliyyət göstərən görkəmli şəxslər haqqında ədəbiyyat sahələr üzrə düzülür. Həmin şəxslərin diyarla əlaqədar fəaliyyətləri haqqında materiallar da kartotekada toplanır. Əgər material həmin kitabxanada yoxdursa, kartoçkanın sağ tərəfində (yuxarı hissəsində) **"kitabxanada yoxdur"** qeydi yazılır, materialın hansı kitabxanada olması haqqında yenə də həmin yerdə qeyd edilir.

Kartotekanı təkmilləşdirmək üçün yerli mətbuatdan, şəhər və rayon haqqında məlumat verən respublika qəzetlərindən istifadə etmək olar. Respublikada nəşr edilməyən, lakin mövzuları yerli məsələlərə həsr edilən jurnal və qəzetlər haqqında da məlumat vermək məqsədəuyğundur.

Oxuculara operativ xidmət göstərmək üçün kartotekalar hər il müəyyən redaktə prosesindən keçir ki, bunlar da aşağıdakılardır: hər gün ortaya çıxan yeni bir sahə və aktual məsələlərin kartotekada öz əksini tapması və yeni rubrikaların (bölmə, yarımbölmə) açılması (kitabxana təcrübəsində qəbul olunmuş normaya görə hər bölmənin daxilində 40-50 kartoçka olması məsləhətdir); köhnəlmiş materialların kartotekadan çıxarılması (ictimai elmlər

3-4 il, təbiətşünaslıq və texniki elmlər 4-5 il, ədəbiyyatşünaslıq və incəsənətə aid 7 və ya daha cox, dövri mətbuat son 4-5 il saxlanılır); yeni materialların daxil edilməsi, kartotekanın quruluşunun tətbiq olunan təsnifat cədvəlinə uyğunluğunun yoxlanılması və s.

Diyarşünaslıq ədəbiyyatına iki kartoçka yazılmalıdır. Bunlardan birini sistemli kataloqa, digərini isə kartotekaya daxil etmək lazımdır.

***Tövsiyə kartotekası*** - daha geniş oxucu kütləsinə xidmət məqsədilə yaradılır. Tövsiyə kartotekasında əsas yeri diyarın onun yerli yazıçıların əsərlərinin təbliği, görkəmli şəxsləri haqqında məlumat tutmalıdır. Bu kartoteka oxuculara soraq-biblioqrafiya aparatından sərbəst istifadə etməyi öyrədir. Müxtəlif adlarla - ***"Doğma diyar haqqında nə oxumalı?", "Azərbaycanı dünyaya tanıdanlar!"*** və s. adlarla diyarşünaslıq tövsiyə kartotekası tərtib oluna bilər. Kartoteka oxucuların geniş istifadəsi üçün biblioqrafiya şöbəsində deyil, abonementdə və ya oxu zalında yerləşdirilir. Kartotekada əsasən son dövrlərdə çap olunmuş kütləvi ədəbiyyat və daha əhəmiyyətli jurnal və qəzet məqalələri əks olunmalıdır. Burada materiallar KBT əsasında düzülür, lakin daha xırda yarımbölmələrə ayrılmır. Təsvirlərin çoxu qısa annotasiya ilə müşayiət olunur.

Kitabxanalarda diyarşünaslıqla bağlı ***mövzu kartotekaları da*** təşkil edilə bilər. Bu kartotekalar *kitabxanada* mövcud olan kitab və dövri mətbuat materialları əsasında təşkil olunur. Mövzu kartotekası məzmununa və yerinə görə tövsiyə biblioqrafik göstəricisinə çox yaxındır və bir qayda olaraq kompleks şəkildə təşkil olunaraq hər hansı bir mövzu üzrə ədəbiyyatın açılması və məqalələrin sistemli kartotekasında öz əksini tapması ilə yekunlaşır. Kitabxana diyarşünaslıqla bağlı aktual olan informasiya tələbatını nəzərə alaraq elə bir kartoteka yaratmalıdır ki, bu da, oxuculara mövzu üzrə ədəbiyyatın seçilməsinə kömək etsin.

Azərbaycan haqqında materialların çoxu məqalə şəklində dövri mətbuatda dərc edilir. Bu materiallar biblioqrafiya aparatının təşkili və onun əsas bazası olan xüsusi kartotekaların

tərtibində böyük əhəmiyyət kəsb edir. Kitabxana işçisinin əlinin altında yaxşı təşkil edilmiş, onlarla müxtəlif kitabı, yüzlərlə jurnal və qəzet materialını sistemləşdirən biblioqrafik aparat olmasa, o oxucuların sorğusuna cavab verə bilmədiyi kimi, yüksək səviyyədə kütləvi tədbir də təşkil edə bilməz. Bu məqsədlə kitabxanalar **yerli dövri və ardı davam edən nəşrlərin kartotekasını,** yerli nəşriyyatların buraxdığı kitabların xronoloji kataloqunu tərtib edirlər.

Soraq-biblioqrafiya aparatının bu komponentinin məqsədi diyar ərazisində çıxan çap məhsulunu tam əks etdirməkdir. Burada həm də kartoqrafik materiallar, notlar, çap qrafikası, yerli idarə və müəssisələrin nəşrləri də əks olunmalıdır.

Kartotekada materiallar çap məhsulunun növlərinə görə qruplaşdırılır (qəzetlər, jurnallar, ardı davam edən nəşrlər, kitablar, xəritələr və s.). Dövri və ardı davam edən nəşrləri təsvir edən kartoçkalar adların əlifba sırası üzrə, kitablar və digər nəşrlər isə xronoloji ardıcıllıqla (nəşr ilinə görə) düzülür. Təcrübə göstərir ki, məhz belə düzülüş daha məqsədəuyğundur. Çünki oxucuları çox vaxt müəyyən dövr ərzində çıxan ədəbiyyat maraqlandırır. Kitab və dövri nəşrlərin təsvirləri qısa annotasiya ilə verilir. Annotasiyada onların poliqrafik tərtibatı, məlumat aparatı da əks etdirilir.

Azərbaycan haqqında ədəbiyyatın təbliğinin bütün növləri kimi, kartotekaların müvəffəqiyyətli təşkili də kitabxana işçilərindən çox asılıdır. Bacarıqlı kitabxanaçı Azərbaycana, o cümlədən öz şəhər və rayonuna dair müxtəlif çap məhsullarını aşkara çıxarmaqla oxucuları bu materiallarla maraqlandıra və yaxından tanış edə bilər.

***Soraq və biblioqrafik nəşrlər fondu*** - diyarşünaslıq üzrə soraq-biblioqrafiya aparatının mühüm tərkib hissələrindən biridir. Diyarşünaslıq soraq kitabları faktoqrafik arayışların yerinə yetirilməsində əvəzsiz mənbədir. Biblioqrafik göstəricilər isə kataloqa nisbətən diyar haqqında ədəbiyyatı daha geniş əks etdirir. Universal, sahəvi və mövzu göstəriciləri müxtəlif mövzulara ("***Diyar***

***haqqında ədəbiyyat", "Diyarın bu günü və gələcəyi"*** və s.) dair ədəbiyyatın seçilməsinə yaxından köməklik göstərir; toplu sistemli kataloqu tamamlayır, diyar haqqında ədəbiyyatı müxtəlif aspektlərdən açır (mövzu, əlifba, topoqrafik, xronoloji və s.).

Soraq fonduna yerli dövlət idarələrinin və ictimai təşkilatların nəşrləri ilə yanaşı, diyar haqqında rəsmi sənədlərdən başqa, müvafiq "diyarşünaslıq" ensiklopediyaları, bələdçi kitablar, təqvimlər, statistik materiallar məcmuəsi, inzibati-ərazi bölgüsü üzrə məlumat kitabları və s. daxil edilməlidir. Diyarşünaslıq soraq fondunun mühüm hissəsini müxtəlif coğrafi xəritələr, atlaslar, vilayətin ayrı-ayrı obyektlərinin plan və sxemləri də təşkil edir.

***Ödənilmiş arayışlar fondu*** - belə arayışların yerinə yetirilməsi biblioqrafdan sorğunun mahiyyətini yaxşı bilməyi, diyarşünaslıq soraq-biblioqrafiya aparatından səmərəli istifadə bacarığını tələb edir, həm də eyni mövzular üzrə sorğular tez-tez təkrar olunduğuna görə ödənilmiş arayışlar fondunun yaradılması məqsədəuyğundur. Bu fonddan səmərəli istifadə etmək məqsədilə ona kartoteka şəklində ***köməkçi əlifba-predmet göstəricisi*** tərtib olunur. Hər bir kartoçkada arayışın tam adı, predmet rubrikası və sıra nömrəsi göstərilir.

Yaxşı təşkil olunmuş bu fond yalnız təkrar arayışların yerinə yetirilməsinə deyil, həm də kitabxanada keçirilən müxtəlif diyarşünaslıq tədbirləri üçün ədəbiyyatın seçilməsinə də köməklik göstərir. Fondda saxlanan arayışlar kitabxananın soraq biblioqrafiya işini təhlil etməyə və tez-tez təkrarlanan mövzular üzrə müxtəlif biblioqrafik göstəricilərin tərtibinə imkan verir.

Kitabxanalarda diyarşünaslıq ədəbiyyatnın təbliğində ***biblioqrafik xidmətin*** rolu böyükdür. Biblioqrafik xidmət oxucu tərkibinin müxtəlifliyinə görə çoxcəhətli və olduqca rəngarəngdir. Buna görə də, elə bir biblioqrafik xidmət sistemi yaratmaq lazımdır ki, təhsilindən, ixtisasından, sosial statusundan asılı olmayaraq bütün qrupdan olan oxucular ondan faydalana bilsin.

Diyarşünaslıq üzrə tələbatçılara biblioqrafik xidmətin əsas istiqamətləri ***soraq-biblioqrafiya və biblioqrafik informasiyaver-mə*** xidmətləridir.

***Soraq-biblioqrafiya xidməti*** informasiya tələbatçılarının birdəfəlik sorğusu əsasında olan biblioqrafik xidmətdir. ***Oxucu – sorğu – cavab*** sxemi soraq-biblioqrafiya xidmətinin əsas prosesidir. Soraq-biblioqrafiya xidməti oxucu sorğularının biblioqrafik üsulla ödənilməsi deməkdir. Bu iş oxucuların müxtəlif sorğularına cavab olaraq ***arayışlar*** hazırlamaq şəklində həyata keçirilir.

Oxucu sorğularına uyğun olaraq arayışların iki növü var: ***biblioqrafik və faktoqrafik.*** Tələb olunan və verilən informasiyanın xarakterindən asılı olaraq biblioqrafik arayışlar da üç növə ayrılır: ***mövzu, dəqiqləşdirmə və ünvan arayışı.***

Yerinə yetirilmə formasına görə arayışlar ***şifahi və yazılı*** olur. Diyarşünaslıq sorğularının məqsədi olduqca müxtəlifdir: elmi iş, istehsalata kömək, mühazirəyə hazırlıq, şəxsi təhsil, tədris işi və s.

***Şifahi arayışlar*** bir qayda olaraq operativ şəkildə və oxucunun iştirakı ilə verilən sorğuya şifahi şəkildə cavablandırma ilə yerinə yetirilir. ***Yazılı arayışlar*** isə mürəkkəb olduğundan müəyyən müddət ərzində hazırlanır. Yazılı biblioqrafik arayışların hazırlanması aşağıdakı mərhələlərə bölünür:

- ***sorğunun qəbulu***. Sorğu qəbul edilərkən, onun mövzusu, məqsəd və vəzifəsi, əhatə dairəsi dəqiqləşdirilməli, xüsusi uçot dəftərində qeyd edilməlidir;

- ***sorğu ilə əlaqədar əsas mənbələrin aşkar edilməsi və seçilməsi.*** Bu mərhələdə kitabxana işçisi sorğunun ödənilməsi üçün hansı mənbələrə müraciət ediləcəyini müəyyənləşdirir. Bu mənbələr salnamələr, məlumat kitabları, biblioqrafik vəsaitlər, məlumat nəşrləri, dərsliklər və s. ola bilər;

- ***ədəbiyyatın aşkara çıxarılması və seçilməsi.*** Bu zaman kitabxanaçı axtarış apardığı mənbələrdən aktual olan və sorğuya müvafiq ədəbiyyatı seçməlidir;

- ***sorğuya cavabın tərtibi.*** Sorğuya cavab tərtib edilərkən biblioqrafik təsvirlərin dəqiqliyini, ədəbiyyatın müvafiq qayda əsasında düzülüşünü təmin etmək, istifadə edilən mənbələri göstərmək lazımdır.

Biblioqrafik arayış mütləq iki nüsxədə hazırlanmalı və bir nüsxəsi soraq-biblioqrafiya aparatının ödənilmiş arayışlar fondunda saxlanılmalıdır.

***Biblioqrafik informasiyavermə xidməti****nin* əsasən 2 forması həyata keçirilir: ***kütləvi və qrup halında.*** Bu xidmət geniş oxucu kütləsinə kitabxanaya daxil olan yeni ədəbiyyat haqqında vaxtlı-vaxtında məlumat vermək məqsədilə həyata keçirilir və bu zaman kitabxananın bütün oxucularına bu ədəbiyyatlardan istifadə etmək imkanı yaradılır, eyni zamanda kitabxanaya yeni oxucular cəlb edilir.

Oxuculara kütləvi informasiyavermə xidmətinin mühüm formalarından biri yeni alınan ədəbiyyatın ***məlumat bülletenləri****dir*. Belə bülletenlər aylıq və rüblük tərtib olunur. Bu bülletenlərdə, adətən, kitabların biblioqrafik təsvirinin qarşısında kitabın fondda yerini göstərən şifrələr də yazılır, bu da oxucu sorğuları üzrə konkret kitabın biblioqrafik axtarışını xeyli asanlaşdırır. Yeni ədəbiyyatın müvafiq siyahıları hazırlanıb abonementdə və ya oxu zalında, həmçinin yerli qəzetlərdə çap edilməklə və ya kitabxananın saytında əks etdirilməklə oxuculara təqdim edilir.

Diyarşünaslıq nəşrləri haqqında məlumatvermə xidmətinin kütləvi formalarından biri də ***xülasələr****dir*. Diyarşünaslıq ədəbiyyatı üzrə keçirilən xülasələri aşağıdakı kimi qruplaşdırmaq olar: *Yeni nəşrlərin xülasəsi; mütəxəssis günlərində; əlamətdar və tarixi günlərlə əlaqədar keçirilən mövzu xülasələri; kitabxananın diyarşünaslıq fondu və ya onun ayrı-ayrı hissələri üzrə xülasə-ekskursiya; ən əhəmiyyətli müxtəlif diyarşünaslıq nəşrlərinin xülasəsi və s.*

Kitablar haqqında xülasə mövzu və janr üzrə yaxın olan bir neçə əsərin xarakteristikasıdır. Xülasədə kitablardan biri haqqında müfəssəl danışmaq, başqaları haqqında qısa məlumat vermək

olar. Ancaq bu zaman biblioqrafik təsvir verilmir. Tövsiyə siyahısında əsər haqqında məqalələr, resenziyalar göstərilir. Həmçinin, haqqında məlumat verilən nəşrlərin oxucular tərəfindən necə əldə edilməsi, yerləşdiyi kitabxanalar, elektron versiyasının mövcud olduğu saytlar barədə də məlumat verilir.

Ölkə haqqında daha yaxşı kitab və məqalələrin təbliği və ədəbiyyat haqqında məlumat bir-birinin davamı olan və biri digərini tamamlayan ***biblioqrafik göstəricilər, vəsaitlər*** vasitəsilə həyata keçirilir.

Oxucu və məqsəd istiqamətindən, ictimai təyinatından asılı olaraq, diyarşünaslıq vəsaitləri ***elmi-köməkçi və tövsiyə xarakterli*** olurlar. Funksional-məqsəd və xronoloji əlamətlərə görə onlar ***cari, retrospektiv və perspektiv*** vəsaitlərə ayrılırlar. Eyni zamanda biblioqrafiyalaşdırılan sənədlərin məzmunu ilə bağlı olaraq diyarşünaslıq vəsaitləri aşağıdakı kimi təsnifləşdirilir: ***universal, kompleks, mövzu, sahəvi və şəxsi biblioqrafik*** göstəricilər.

Lakin kitabxanaçıların çoxu, ədəbiyyatı tövsiyə etmək üçün ən yaxşı vasitə olan bu materiallardan istifadə etmirlər. Oxucuları biblioqrafik vəsaitlə tanış etmək üçün yeni biblioqrafik vəsaitlərin mövzu sərgilərini təşkil etməli, tövsiyə siyahılarını bütün müvafiq kitab sərgilərində yerləşdirməli, biblioqrafik vəsaitlərin xülasələrini keçirməli, kitabxanaya yeni daxil olan ədəbiyyatın mövzu xülasələrini keçirdikdə biblioqrafik əsərləri əks etdirməli, biblioqrafik əsərlər haqqında oxuculara fərdi məlumat verməlidirlər. Biblioqrafik göstəricilərlə aparılan işdə kitabxanaçı oxucunun hazırlığını və ixtisasını nəzərə almalı, oxuculara biblioqrafik vəsaitlərdən necə istifadə etmək, onlardan kitabı necə seçmək haqqında məsləhət verməlidir. Biblioqrafik vəsaitlərdən kitabxananın daxili işində - kütləvi tədbirlərin hazırlanması, kitab fondunun komplektləşdirilməsi zamanı da istifadə etmək olar. Biblioqrafik vəsaitlərin təbliğində biblioqrafların rolu böyükdür. Çünki hər hansı bir məlumatı öyrənmək istəyən oxucu sorğu ilə biblioqraflara müraciət edir.

Milli Kitabxananın hər il nəşr etdiyi ***"Əlamətdar və tarixi günlər təqvimi" də*** diyarşünaslıq üzrə ədəbiyyatın təbliğində istifadə edilə bilər. Bu vəsaitin əsas məqsədi ölkəşünaslıq ədəbiyyatının təbliğində kitabxana işçilərinə kömək etməkdən ibarətdir. Müəyyənləşdirilmiş və dəqiqləşdirilmiş tarixlər aylar və günlər üzrə xronoloji ardıcıllıqla düzülür. Günü və ayı məlum olmayan tarixlər ayrıca verilir. Vəsaitdə il ərzində Azərbaycanın görkəmli şəxsiyyətlərinin, şair və yazıçılarının, mədəniyyət, incəsənət və siyasi xadimlərin, elm adamlarının, Milli Qəhrəmanların yubileyləri, haqqında informasiya, diyarın ərazisində yerləşən dövlət əhəmiyyətli idarələrin, əlamətdar və tarixi hadisələrin ildönümləri ilə bağlı zəngin informasiya və ədəbiyyat siyahıları verilir.

Təqvimdə köməkçi aparat kimi müəyyən şəxslə bağlı ədəbiyyatın axtarışını asanlaşdıran adlar göstəricisi verilməlidir.

Burada verilən məlumatların ölkənin (diyarın) təbliğ edilməsində əhəmiyyəti böyükdür. Kitabxanaların ondan iş planlarının və kütləvi tədbirlərin hazırlanmasında istifadəsi tövsiyə olunur. Əgər kitabxananın imkanı varsa diyarşünaslıq mövzularına dair göstəricilər, biblioqrafik yaddaşlar və vərəqələr nəşr etməsi tövsiyə olunur.

Diyarşünaslıq ədəbiyyatının təbliği ilə bağlı müxtəlif kütləvi tədbirlərdə - təqdimat mərasimlərində, sərgilərin təşkilində, mövzu gecələri, dəyirmi masalar, kitab bayramları və başqa tədbirlərdə, eləcə də müxtəlif məzmunlu məlumat bazaları yaradarkən Milli Kitabxananın ***biblioqrafik və metodik nəşrlərindən, məlumat bazalarından*** informasiya mənbəyi kimi istifadə etmək məqsədəmüvafiq olardı.

# Nəticə

Bu gün kitabxanaların fəaliyyət istiqamətlərindən biri ölkəşünaslıq və diyarşünaslıq ədəbiyyatının təbliği, məlumat bazalarının yaradılması, onların daim yenilənməsi və daha da təkmilləşdirilməsidir.

Diyarşünaslıq ədəbiyyatının təbliği zamanı diyarşünaslıq fakt və materiallarından istifadə bir neçə baxımdan faydalı olur:

- oxucular tariximizlə bağlı daha geniş, əhatəli və sistemli biliklər qazanır, yeni-yeni məlumatlar öyrənirlər;
- bu diyarşünaslıq materialları onlarda vətənpərvərlik, qəhrəmanlıq, əməksevərlik hisslərinin dərinləşməsinə güclü təsir edir;
- oxucuların doğma diyarın tarixi, tarixi coğrafiyası, ədəbi dəyərləri, görkəmli şəxslərin həyatı barədə həqiqətləri öyrənməyə maraqları artır və s.

Diyarşünaslığın öyrənilməsi və təbliği məqsədilə aşağıdakılar tövsiyə olunur:

✓ Azərbaycanda dövlət müstəqilliyinin möhkəmləndirilməsində ulu öndər Heydər Əliyevin dövlətçilik fəaliyyətini, dövlət atributlarını, müstəqil dövlətin konstitusiyasının yaranmasını, demokratik seçki sisteminin, neft strategiyasının, iqtisadiyyatın hüquqi əsaslarının yaradılmasını, dövlət diplomatiyasını və digər dövlət əhəmiyyətli sahələri öyrənmək və təbliğ etmək;

✓ Azərbaycanın siyasi, iqtisadi, sosial mədəni yüksəlişində Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin apardığı siyasətin əhəmiyyətinin təbliğ olunması;

✓ Kitabxana fondlarının oxucuların diyarşünaslıqla bağlı tələb və maraqlarına uyğun formalaşdırılması;

✓ Kitabxanaların saytlarında ümumi istifadə üçün elektron biblioqrafik və tammətnli ölkəşünaslıq ehtiyatlarının yerləşdirilməsi;

✓ Kitabxanada oxucuların öz ölkəsinin (şəhərinin, rayonunun, kəndinin) tarixi, müasir vəziyyəti və gələcək inkişafı barədə

məlumatlandırılması, onlarda doğma diyara qarşı maraq oyatmaq, vətənlərinə məhəbbət və qayğı ilə yanaşmanı tərbiyə etmək, maraqlı insanlarla görüşlərin təşkil edilməsi və s.;

✓ Hər bir kitabxanada ölkəşünaslıq soraq-biblioqrafiya aparatının təşkilində xidmət ərazisinin iqtisadi profilinin, kitabxananın oxucu kontingentinin nəzərə alınması;

Diyarşünaslıq üzrə biblioqrafik xidmətin səmərəliliyi biblioqrafik ehtiyatların təşkilindən və istifadəsindən, biblioqraf kadrların hazırlıq səviyyəsindən, bu işin metodiki təminatından asılıdır. Kitabxanada ayrı-ayrı şöbələrin yerinə yetirdikləri diyarşünaslıq işlərinin həcmi nəzərə alınmaqla, həm kitabxananın daxili strukturları, həm də başqa kitabxanalarla fəaliyyətinin qarşılıqlı əlaqələndirilməsi genişləndirilməlidir.

# Ədəbiyyat

**Cəfərov, N.** Azərbaycan: Dil, ədəbiyyat və mədəniyyət /N.Cəfərov; elmi red. H.İmanov.- Bakı: Bakı Universiteti, 2001.- 78 s.

**Əhmədov, M.** Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının ölkəşünaslıq və diyarşünaslıq fəaliyyəti /M.Əhmədov, Z.İsmayılov //Kitabxanalar milli mədəniyyətin dirçəliş resursudur = Библиотеки – как ресурс национально-культурного возрождения.- Bakı, 2011.- S.89-111.

**Hacıyeva, E.** Tarixi abidələrdən istifadə və onların təbliği /E.Hacıyeva //Yeni mədəni-maarif.- 2008.- №8.- S.72-75.

**Hacıyeva, Q.** Müasir dövrdə ölkəşünaslıq biblioqrafiyasının təşkili /Q.Hacıyeva //Kitabxanaşünaslıq və biblioqrafiya.- 2011.- №1.- S.78-86.

**İsmayılov, N.** Kitabxanada ölkəşünaslıq (diyarşünaslıq) üzrə biblioqrafik fəaliyyət (nəzəri-tarixi, təşkilati-metodiki məsələləri) /N.İsmayılov, Q.Hacıyeva.- Bakı: Mütərcim, 2004.- 112 s.

**Kərimov,Y.** Pedaqoji tədqiqat metodları: dərs vəsaiti /Y.Kərimov; elmi red.Ə.Paşayev; məsləhətçi: Ə.Ağayev, A.N.Abbasov.- Bakı: [Azərnəşr], 2009.- 279 s.

**Kütləvi kitabxanalarda diyarşünaslıq məlumat-biblioqrafik aparatın təşkil edilməsi**: metodiki tövsiyələr /AzSSR Mədəniyyət Nazirliyi, M.F.Axundov adına Azərb. Resp. Dövlət Kitabxanası.- Bakı, 1980.- 84 s.

**Nəcəfova, Y.** Kitabxanalarda ölkəşünaslıq işi: metodik vəsait /M.Nəcəfova; red.F.Əliyev; AzSSR Mədəniyyət Nazirliyi, M.F.Axundov ad. Azərb. Resp. Kitabxanası.- Bakı: [s. n.], 1964.- 62 s.

**Paşayev, T.** Diyarşünaslıq materialları gənc nəslin vətənpərvərlik tərbiyəsinin mühüm vasitəsi kimi: [monoqrafiya] /T.Paşayev; elmi red. Ə.Ağayev, İ.Cəbrayılov; Azərb. Resp. Təhsil

Nazirliyi, Azərb. Resp. Təhsil Problemləri İns-tu.- Bakı: Mütərcim, 2010.- 298 s.

**Paşayev, T.** Tarix-diyarşünaslıq materialları əsasında gənc nəslin vətənpərvərlik tərbiyəsi/T.Paşayev; elmi red. A.Abbasov; red. İ.Cəbrayılov.- Bakı: Nərgiz, 2005.- 216 s.

**Şəmsizadə, N.** Azərbaycançılıq: [Azərbaycan xalqının milli ideologiyası] /N.Şəmsizadə; red. K.Talıbzadə.-Bakı: Nurlar, 2006.- 192 s.

**Ulusel, R.C.** Heydər Əliyev və Azərbaycan, Atatürk və türk dünyası: Nizami Cəfərovun elmi araşdırmalarında/C.Rahid Ulusel; AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu; elmi red. Y.Rüstəmov.- Bakı: Elm, 2004.- 148 s.

**Yusifov, M.** Azərbaycançılıq /M.Yusifov.- Bakı: Elm və təhsil, 2010.- 132 s.

* * *

**Ажеева, Р.** Историко-краеведческая деятельность публичных библиотек: учеб. пособие /Р.Ажеева.- М.: Литера, 2011.- 112 с.

**Библиотечно-библиографическая классификация**: Таблицы для краеведческих каталогов библиотек.- М.: Книжная палата, 1989. - 322 с.

**Библиотечное краеведение на современном этапе**: библиогр. список лит. 2010-2011 [Электронный ресурс] /сост. Л.С. Николаева //Библиотечное дело.- 2011.- №16.- С.35-36; URL: http://www.twirpx.com/file/830594/

**Карпова, И.** Библиотечное краеведение - от традиций к инновациям!: /И.Карпова //Университетская книга.- 2009.- №6.- С.10-11.

www.anl.az
www.azerbaijan.az
www.azerbaijan-news.az
www.azertag.com

www.azhistorymuseum.az
www.bsu.edu.az
www.d-a-k.org
www.heydar-aliyev-foundation.org
www.mct.gov.az
www.muallim.edu.az
www.president.az
www.preslib.az

# Mündəricat

Tərtibçidən ........................................................................ 3
Giriş ............................................................................................ 4
Kitabxanalarda diyarşünaslıq ədəbiyyatının təbliği ........... 8
Diyarşünaslıq üzrə biblioqrafik fəaliyyət ........................... 22
Nəticə ............................................................................................ 34
Ədəbiyyat ................................................................................. 36

**Kitabxanalarda diyarşünaslıq ədəbiyyatının təbliği**

(Metodik tövsiyələr)

**Nəşriyyat redaktoru**: ***Mehriban Cəfərova***

Ünvan: AZ-1000 Bakı ş., Xaqani küç. 29
E-mail: metodik@anl.az
URL: www.anl.az

M.F.Axundov adına Azərbaycan
Milli Kitabxanasının mətbəəsində
ofset üsulu ilə çap olunmuşdur.
Sifariş: 6
Çapa imzalanmışdır: 11.02.2015
Tirajı: 150
Pulsuz